**UOT 745/749**

**İmran Yunis oğlu Mehdiyev**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**doktorant**
**e-mail: imran_9120@mail.ru**

# HƏYAT ABDULLAYEVANIN YARADICILIĞINDA NİZAMİ GƏNCƏVİ MOTİVLƏRİ: "YEDDİ GÖZƏL VƏ BƏHRAM ŞAH"

**Xülasə:** Azərbaycan heykəltəraşlıq məktəbində Həyat Abdullayevanın yaradıcılığı parlaqlığı və bənzərsizliyi ilə seçilir. Heykəltəraşın yaradıcılığının formalaşması qeyri-adi sürətlə baş verirdi. Onun müasiri olduğu hadisələrin nəhəngliyi, yeni şəhərlərin yaranması və tarixi-memarlıq abidələrinin rekonstruksiyası, müxtəlif sənət növlərinin sintezinə səy göstərilməsi, müxtəlif sərgilər, yeni sənət əsərlərinin yaradılması üçün müsabiqələrin keçirilməsi və bu qəbildən olan bütün digər tədbirlər heykəltəraşdan ətrafda baş verən hadisələrin mahiyyətini anlamağı, onları zamanın tələblərinə müvafiq qiymətləndirməyi, obrazları yeni insani xüsusiyyətlərlə təqdim etməyi tələb edirdi. Heykəltəraşın çox tutumlu bədii irsi onun sənət düşüncələrinin və yaradıcılıq amalının Azərbaycanın mədəniyyət və incəsənətinin inkişaf ahəngi ilə çox sıx bağlı olduğunu sərgiləyir.
**Açar sözlər:** heykəl, Nizami, Şərq, kompozisiya, obraz, lirika, plastika.

Görkəmli Azərbaycan heykəltəraşı Həyat Abdullayeva davamlı axtarışları ilə işlərində kompozisiyanın statikliyini, durğunluğunu aradan qaldırmağa çalışır, dolğun psixoloji obraz yaradırdı. Bu nümunələrdə plastikanın konstruktiv əsasını təşkil edən forma-biçim aydınlığını və təbiiliyini dərketmə təmayülləri çox qabarıq, duyulan idi.

Bunlar insan xarakterini, onların mənəvi aləmlərinin bədii tərzdə dərindən başa düşməsi ilə səciyyələnirlər. Bu dövrün Azərbaycan heykəltəraşlığında janr müxtəlifliyi daha artıq hiss edilməyə başlayır. Onlarda intellektual məzmun, modellərin dairəsi, kəskin psixoloji obrazların yaradılması əhəmiyyətli dərəcədə çoxalır. Həyat Abdullayevanın kompozisiya heykəltəraşlığı sahəsinə xarakterlərin zəngin həyatiliyi və ifadəliliyi xasdır.

Həyat Abdullayevanın Nizami mövzularından bəhrələnmiş əsərini bəzən "Yeddi gözəl və Bəhram şah" da adlandırırlar. Çini fiqurlar kompozisiyasından ibarət bu əsərdə müəllif Bəhram şahı oturan vəziyyətdə, ortalıqda təsvir etmiş, gözəlləri isə onun ətrafında cəmləşdirmişdir. Qızların fiqurları bir-birindən hərəkətləri, duruşları, geyimləri ilə fərqlənməsinə baxmayaraq, birlikdə bütöv bir ansambl, yetkin bir kompozisiya təşkil edir. Hind, Azərbaycan, Slavyan, Çin və

Məğrib gözəllərini təmsil edən fiqurlar daha gözə yatımlıdır və məişətimizin bəzəyi üçün yararlı olan fiqurlar ekspozisiya üçün daha münasibdir. Bu fiqurlarda Nizami Gəncəvinin ədəbi obrazlarına yeni və orijinal açılışlar verməyə nail olunmuşdur. Mövzunun özü burada heykəltəraşı daha çox gözəlliyin və ekzotikanın qabardılmasına sövq etmişdir. Bununla belə, müəllif oturmuş vəziyyətdə əlində qəlyan tutan Bəhram Guru əhatə edən yeddi gözəlin rəngli və işıqlı fiqurlarında farforun təbiətindən, onun faktura imkanlarından doğan dekorativliyini professionallıqla hiss edə bilmişdir. Fiqurlar təkcə sənətkarın əsərə incə plastika və rəng vermək bacarığı ilə diqqəti cəlb etmir, həm də hər şeydən əvvəl, obrazların səciyyəvi xüsusiyyətlərinin ifadə edilməsi baxımından məntiqi məna kəsb edir. Burada obrazın tipik jest və hərəkətləri məharətlə tapılmışdır.

Həyat Abdullayevanın yaratdığı yeddi gözəl heykəlcikləri orijinallığı, bədii-estetik mahiyyəti, həcm, rəng, işıq və s. proporsionallıq dərəcəsinin düzgün tapılması mənasında müasir plastikanın bütün tələblərinə cavab verir. Bu fiqurlarda etnik və etnoqrafik xüsusiyyətlər məharətlə və aydınlığı ilə təqdim edilmişdir. Xüsusilə də hind, slavyan və məğrib gözəllərinin obrazlarında daha çox ifadəlilik vardır. Ümumiyyətlə, Azərbaycan heykəltəraşları Nizami “Xəmsə”sinin mövzuları əsasında böyük bir obrazlar qalereyası yaratmışlar. H. Abdullayevadan əvvəl və sonra da bu mövzuya müraciət edilmişdir. Z. Məmmədova, E. P. Orbeliani, R. Xələfov və b. heykəltəraşlar da bu mövzuda yaddaqalan əsərlər yaratmışlar. Sevindirici bir haldır ki, varislik ənənələrinə ehtiramla yanaşan yeni nəslin nümayəndələri sələflərinin təcrübəsindən novatorcasına bəhrələnməyə çalışırlar. Bu gün onlarla heykəltəraşımız dönə-dönə Nizami mövzusuna qayıdır. Konkret olaraq “Yeddi gözəl” əsərinin süjetlərinə müraciət edən tişə ustalarından Nəriman Məmmədovun və Zakir Əhmədovun adları xüsusilə qeyd edilə bilər. Hər iki sənətkarın “Yeddi gözəl” əsəri kiçik plastika janrında işlənmişdir. Bunlar həm forma, həcm, xarakter, dinamika baxımından, həm də material seçiminə görə fərqlənir. Z. Əhmədov material kimi tunca, N. Məmmədov isə mərmərə üstünlük vermişdir. N. Məmmədovun sərgilərdə nümayiş etdirilən və Türkiyə Respublikasında nəşr olunan (Azərbaycan rəssamlarına həsr edilmiş) ensiklopediyaya daxil edilmiş “Yeddi gözəl” əsəri dekorativ səpkidə işlənmişdir. Bu baxımdan onun əsəri ilə H. Abdullayevanın “Yeddi gözəl”i arasında müştərək xüsusiyyətlər də vardır. Bu faktın özü müasir heykəltəraşlar nəslinin varislik, ənənə və novatorluq problemlərinə ciddi yanaşdıqlarını təsdiqləməkdədir [1; s. 8].

Həyat Abdullayeva heykəltəraşlığın müxtəlif janrlarında fəaliyyət göstərərək, materialın mövzunun açılışına xidmət edən əsaslarını dəqiqləşdirərək öz əvəzsiz əsərləri ilə Azərbaycan heykəltəraşlıq tarixinə imza atmışdır.

Belə əhəmiyyətli əsərləri sırasında onun kiçik heykəltəraşlıq nümunələri olan çinidən hazırlanmış çoxfiqurlu kompozisiyaları da xüsusi dəyərə malikdir. Misal olaraq "Bəhram Gur və yeddi gözəl" əsərini göstərmək olar. 1957-ci ildə hazırlanmış əsər çinidən hazırlanaraq üzəri şirəüstü naxışla, qızıl zərləmə ilə bəzədilmişdir.

Sasanilər sülaləsinin beşinci hökmdarı olan Bəhram Gura həsr edilmiş iriölçülü abidə kimi ilk ağıla gələn Azneft meydanında qoyulmuş əsəri qeyd etmək olar [2; s. 46]. Burada Bəhram Gurun qəhrəmanlığı, əjdaha ilə döyüşdə onu ram edən, od püskürən nəfəsli obrazı xüsusi olaraq diqqət çəkir. Əlindəki qalın qılıncı ilə ayağına dolaşan əjdahanı ilk zərbədəcə öldürmə təəssüratı onun iri və güclü biləklərinin canlı ifadəsi ilə tərənnüm edilmişdir. Albert Mustafayev, Qorxmaz Sücəddinov və Aslan Rüstəmov tərəfindən üç müəllifin iştirak etdiyi əsərin hündürlüyü 3,5 metrə çatır. Təbii ki, bu, olduqca möhtəşəm və böyük bir abidədir.

Həyat Abdullayevanın yaratdığı əsərdə isə Bəhram Gur obrazına tamamilə fərqli aspektdən yanaşılmış, onun öz sarayında təxmin edilən səhnə tərənnümündə verilməsi maraq doğurur. Güclü simanın arxasında gizlənən lirik, duyğulu anların ifadəsini verən rəssamın hər zaman zəriflik arxasınca getdiyi qeyd edilən əsərdə də özünü aydın göstərir.

Bəhram Gur yeddi gözəlin əhatəsində oturmuş halda verilmişdir [3; s. 56]. Ümumi kompozisiya quruluşunda sənətkarın diqqət etdiyi əsas cəhət obrazların pərakəndə düzülüşü ilə bitməyərək, onların uyğunluq yaradan səhnə tərənnümünü təqdim etməsidir.

Burada uyğunlaşdırma prinsipi hər bir gözəlin qəhrəmana baxan sevgi dolu nəzərləri, qəhrəmanın isə palaz üzərində bardaş quraraq onları izləməsidir. Burada qəhrəmanın obrazının təsviri onun ənənəvi olaraq, əsasən, qəhrəmanlığını tərənnüm edən səhnələrdən fərqli olaraq rahat anlarının, qayğılardan uzaq istirahət etdiyi dəqiqələrin təsviri diqqəti özünə cəlb edir.

Həyat Abdullayeva qeyd edilən əsərdə milli elementlərin istifadəsinə xüsusi diqqət yetirmiş və hər bir formanı diqqət çəkəcək plastikliklə həyata keçirmişdir. Belə elmentlər sırasında qəhrəmanın altına sərilmiş xalçanı göstərmək olar. O, öz taxt-tacında deyil, istirahət etdiyi sarayın bir məkanında oturmuşdur. Bu, elə bir məkandır ki, şahın, hökmdarın taxtdakı hökm anından, qərarlar qəbul etməsindən uzaq, onun məhz istirahət etdiyi, mənəvi rahatlıq tapmağa çalışdığı bir mühitdir. Bunun üçün sənətkar seçilmiş səhnədə uyğun detal və elementlərin seçiminə də xüsusi diqqət yetirmişdir.

Qeyd edildiyi kimi, xalçanın tərənnümü əsərdə yüksək əhəmiyyət daşımışdır. Həyat Abdullayeva onun üzərindəki ornamentin belə dəqiqliklə verilməsini nəzərdə tutmuşdur [4; s. 6]. Həmin elementlər tünd zoğalı yerliyin

üzərində özünün dinc nəbatat ornamentasiyası ilə fərqlənir. H. Abdullayeva bu zaman şirəüstü naxışlardan istifadə etmiş, görüntünü daha da zənginləşdirmək məqsədilə qızılla zərləmə üsuluna üstünlük vermişdir.

Gözəllərin əhatəsində obrazın təsvir pozasını əsas məqsəd hesab edən heykəltəraş onu mərkəzdə özünə güvənən və eyni zamanda gözəlliyə dəyər verən lirik formalarla canlandırmışdır. Bu zaman əsas olan geyim tərzinin də savadlı şəkildə həll edilməsi vacib məqamlardan hesab edilir. Savadlı dedikdə, Bəhram Gurun yaşayıb yaratdığı V əsrin mədəni həyatına müvafiq olaraq formalaşmış geyim mədəniyyətinin düzgün tərənnümü nəzərdə tutulur ki, heykəltəraş bunun öhdəsindən gəlməyi bacarmışdır.

Belə ki, uzun, bəyaz arxalığın kənarlarının qızılı sapla işlənmiş naxış elementləri, ayağı dar şalvar, hündür papaq, burnu yuxarı qalxmış çarıq deyilənləri təsdiq edən detal təsvirləri sırasına daxildir. Alt köynəyin də kənar haşiyələrinə vurulmuş bəzək naxışları arxalığın kənar hissələri ilə eynilik təşkil edir. Nəbati və həndəsi elementlərin zövq oxşayan sintezindən yaradılmış həmin naxışlar dal hissələrin kənarlarında da təkrarlanaraq estetik zövqü dəyərləndirir.

Heykəltəraş, qeyd edildiyi kimi, Bəhram Gurun səhnə tərənnümündə nəzərdə tutulmuş məqsədə çatmaq üçün onun xüsusi səhnə mövqeyinə böyük əhəmiyyət vermişdir. Bu, həm də qəhrəmanın oturuş pozası ilə əlaqədardır. Döyüşlərdə böyük güc və qüdrət nümayiş etdirən güclü obrazın mənəvi aləmindəki lirizmi vermək bir-birinə tərs olan daxili və mənəvi aləmin açıqlanması baxımından sənətkardan böyük psixoloji açıqlanmanın təsvir dilində həll edilməsini tələb edir. Qeyd edilən problemin öhdəsindən gəlməyə çalışan heykəltəraş qəhrəmanın geyim tərzi ilə bağlı, eyni zamanda, onun sifət cizgilərinin uyğun bədii ifadəsi ilə də nail olmağı bacarmışdır. Qəzəb ifadə edən, gərginlik yaradan çatılmış qaşların əvəzinə daha mülayimlik ifadə edən sakit sifət quruluşu, dərin məna ifadə edən nəzərlər, orta əsrlər Azərbaycan kişilərinə məxsus enli bığlar, gözəllikdən zövq alaraq mənalı baxan nəzərlər bütün deyilənləri bir daha təsdiqləyir [5; s. 41]. O, bir ayağını altına qatlayaraq, digər ayağını dizdən qaldırmış və əlini də dizinin üstünə qoymuş şəkildə kimisə dinləyir. Bu dinləmədə həm söylənən həyat həqiqətlərindən, məsəllərdən nəticə çıxarmaq, həm də zövq anlarının təqdimi birgə olaraq öz bədii həllini tapmışdır.

"Yeddi gözəl" əsərinin süjetinin əsasında Sasani şahı Bəhram Gur haqqında əfsanə demək olar ki, qədim mifologiyaya uyğun olaraq hərəsi bir planetə və ya həftənin gününə uyğun rəngli saraylarda yaşayan yeddi gözəlin hekayələrindən ibarətdir. Yeddi gözəl poeması erotik ədəbiyyatın şah əsərlərindən sayılır. Lakin onun ciddi mənəvi anlamının ifadə etdiyi dərin məna əsərin yüksək dəyərini qeyd edir.

Həyat Abdullayevanın yaratdığı "Bəhram Gur və yeddi gözəl" əsərində İran gözəlinə həsr etdiyi əsər özünün yüksək estetikliyi ilə diqqəti cəlb edir. Xarakterik obrazın yaradılmasında İran qadınının utancaq, lakin işvəli, nazlı simasının həll edilməsi bütün psixoloji məqamlarınadək dəqiqliklə edilmişdir. Belə ki, çatılan qaşlar, yuvarlaq sifət quruluşu, sivri burun, incə dodaqlar qeyd olunanları xüsusilə təsdiqləyir.

Sənətkar İran gözəlinin bədii ifadəsini verərkən onun pozasındakı isməti təbii olaraq canlandırmaq məqsədi ilə onun örpəyinin bir tərəfindən tutaraq incə və nazlı baxışlarla üzünü gizlətməyə çalışdığı anı digər gözəllərdən fərqləndirən cəhət kimi önə çəkmişdir.

Əsər çini materialdan hazırlanaraq, şirəüstü naxışlarla bəzədilmiş, qızılı zərləmə üsulundan istifadə edilmişdir. Geyim formasının özünəməxsusluğu orta əsrlər Şərq qadınlarının xarakterik cizgilərini müəyyənləşdirən amillərə əsaslandırılmışdır.

Gözəlin başındakı örpək və əynindəki alt köynəyi incə, zərif, parlaq atlasın ənlik rəngində verilmişdir. Bu rəng üst geyiminin müxtəlf yerlərində verilmiş qızılı bəzəklərə uyğun olaraq zövqlü ifadə tərzini təqdim edir. Baş örpəyinin yuxarı hissəsində alına doğru qızılı hil adlanan qızılı baş bəzək elementi verilmişdir. Bu detal İran gözəlinin üzündəki parlaqlığı xüsusilə artırmış, ona xüsusi dəyər qatmışdır. Ümumiyyətlə, bir çox hallarda kiçik elementlərin bir əsərdə oynadığı yüksək əhəmiyyət haqqında iddialar vardır ki, bu da qeyd edilən əsərdə də öz parlaq ifadəsini göstərməkdədir.

İran gözəlinin örpəyinin üzərində kiçik xallı zərlər verilmişdir. Köynəyin formasına gəlincə, belə qədər olan arxalığın rəngi ətəklə eyni olaraq açıq zoğalı çalarla ifadə edilib. Düz formada olan arxalıq qollardan dirsəyə qədər enliləşir, onun da kənarları qızılı saplarla bəzədilmişdir.

Ətəyin forması yuxarıdan büzməli olaraq atlas astarın üzərindən zoğalı şifon parçanın həll edilməsi ilə təqdim edilmişdir. Ətəyin üzərində yarımhalqa, buta formalı stilizə edilmiş bəzək naxışları qızılı saplarla tikilərək geyim tərzinin gözəl zövqdə biçildiyini təsdiqləyir. Ətəyin alt qismi isə qızılı naxışlarla harmoniya yaradan qara saplarla bəzədilmişdir. Zəngin geyim forması həm də Şərq qadınlarının dəbdəbəli zövqlü olduqlarından xəbər verir.

Gözəlin sırğaları, qolbaqları da özünəməxsus şəkildə zövq oxşayır. Uzun, sallama sırğalar, hər bir qolda istifadə edilən halqa qolbaqlar zənginliklə bərabər zövqlülüyü də xarakterizə edilir. Bütün bunlar qadının incə qızıl kəməri və geyimin müxtəlif detallarında istifadə edilmiş parlaq bəzək elementləri, haşiyələrlə birlikdə harmoniya yaradır.

Sarayda İran gözəlinin özünəməxsusluğu, onu digərlərindən fərqləndirən cəhət kimi onun daha qürurlu xarakterə mənsub olmasıdır. Lakin daxili ehtiras,

qadın istəkləri bütün bu amillərlə birləşərək əsərdə özünün mükəmməl həllini tapmışdır.

Yeddi gözəldən biri də Məğrib gözəlidir. Merkurinin hökmü altında olan bu gözəlin hədsiz lirik, romantik bədii ifadəsi, zərifliklə bərabər, qeyri-adi güc sahibi olması, mənəvi aləmi əsərdə öz parlaq ifadəsini tapmışdır.

Əsərdəki digər qadın obrazlarından biri də - Slavyan gözəlinin tərənnümünə həsr edilmişdir. Çərşənbə axşamı qırmızı günbəzli saraydan Marsın hökm etdiyi Slavyan gözəlinin digər gözəllərin əhatəsindəki ifadəsi də özünəməxsusluğu ilə seçilir. Bu özünəməxsusluğu sifət cizgiləri ilə bərabər, geyim tərzinin fərqli cəhətləri də ifadə edir.

İlk olaraq gözəlin milli mənsubiyyətini şərtləndirən geyim tərzinə diqqət yetirək. Ümumiyyətlə, çox qədimdən rus torpaqları gözəl xanımları ilə məşhur idi. Onların hamısı üçün açıq rəngdə naxışlı, qəribə şəkillərlə, ornamentlərlə, çoxlu miqdarda qiymətli daş-qaşlarla tikilib bəzədilmiş geyimlər xarakterikdir. Rus kostyumlarının tarixi elə rus dövlətinin özü kimi də qədimdir. Və qədim rus torpaqlarında məskunlaşmış slavyan qəbilələrinin geniş yayılmış fikirlərinə baxmayaraq, onlar özlərinin əfsanəvi gözəlliyə malik geyimləri ilə qürrələnə bilmirdilər. O zamanın kostyumları başlıca olaraq heyvani liflərlə tikilmiş toxunma, yaxud dəri köynək və kəmərdən ibarət olurdu.

Belə qalın geyim qışın uzun sürməsi və yayın sərin keçməsi ilə əlaqələndirilir. O dövrdə, əsasən, xəz papaqlar, rəngarəng kürklər böyük populyarlıq qazanmışdır. Bu mənada təqdim edilmiş geyim formasında şimal soyuğunun tərənnüm edilməsi onun millilik anlayışı ilə üst-üstə düşür.

Slavyan gözəlinin düz alt əlbisəsinin parlaq atlası üzərindən verilmiş yaxası qapanmış arxalıq kürk xarakterini daşıyır. Burada daha incə parça təəssüratının əvəzinə, bir qədər qalın geyim stilini rəssam böyük zövqlə yaratmışdır. Altdan çıxan əlbisə ayaqların üzərinə gələrək onu bütünlüklə bağlamış, görünməz etmişdir. Kürkün sarı rənginin üzərinə haşiyələrdə vurulmuş gümüşü və ipək saplardan ibarət bəzək elementləri onun estetik gözəlliyini önə çıxarır. Üst geyimin qolları arxa hissədən uzanaraq aşağıya doğru davam edir ki, bu da qədim slavyan geyimlərindəki xarakterik detalların müəyyən cizgilərini ifadə edir. Slavyan gözəlinin uzun sarı hörükləri üzərindən qoyulmuş qızılı tac da bu mənada xarakteriklik təşkil edir. Tacın şiş ucluğu, onun üzərindəki həndəsi elementlər yaradılmış əyri xətli naxışların harmonik ifadəsi ilə daha dolğun formada həll edilmişdir. Boyuna dolanmış uzun boyunbağı isə nisbətən daha sadə formadadır.

Sifət cizgilərinə gəlincə isə yuvarlaq, bir qədər dolu sifətin gülümsəyən səmimi ifadəsi xəfif qızarmış qırmızı yanaqların təbii tərənnümü ilə diqqəti xüsusi olaraq özünə cəlb edir.

Bütün bu incə detalları H. Abdullayeva heykəltəraşlığın təqdim edə biləcəyi imkanlar sayəsində uğurla həyata keçirməyi bacarmışdır.


**Ədəbiyyat siyahısı:**

1. Hüseynova, R. Həyat daşlara həyat verir (Heykəltəraş H. Abdullayeva haqqında) // Ədəbiyyat və incəsənət qəzeti, – 1970, – 26 sentyabr. – s. 8
2. Novruzova, C. Sovet Azərbaycanının heykəltəraşlığı. – Bakı: -1973
3. Abdullayeva, Ə. Zivər Məmmədova, Elmira Hüseynova, Həyat Abdullayeva. – Bakı: Şərq-Qərb, – 2013
4. Əzimov, H. İncə zövqlü sənətkar (Heykəltəraş H. Abdullayeva haqqında) // Bakı qəzeti, – 1964, 4 aprel. – s. 6
5. Əhmədov, A. İşin çətin yönü: (Heykəltəraş H. Abdullayevanın iş planları haqqında) // Qobustan jurnalı, –1975, – №2, – s. 41-42.



**Имран Юнис оглы Мехтиев**


## МОТИВЫ НИЗАМИ ГЯНДЖЕВИ В ПРОИЗВЕДЕНИЯХ ХАЯТ АБДУЛЛАЕВОЙ: «СЕМЬ КРАСАВИЦ И БАХРАМ ШАХ»


**Резюме:** Творчество Хаят Абдуллаевой отличается яркостью и неповторимостью в Азербайджанской школе скульптуры. Становление творчества скульптора происходило с необыкновенной скоростью. События, происходящие в те времена, возведение новых городов и реконструкция исторических и архитектурных памятников, усилия по синтезу разных видов искусства, различные выставки, конкурсы новых произведений искусства и все другие подобные мероприятия помогли скульптору понять природу событий, правильно оценить ситуацию, представить новые человеческие образы. Богатое художественное наследие скульптора свидетельствует о том, что идеи и творческий процесс художника тесно связаны с развитием азербайджанской культуры и искусства.



**Ключевые слова:** скульптура, Низами, восточная, композиция, образ, лирика, пластика.

**Imran Yunis oghlu Mehdiyev**
**MOTIFS BY NIZAMI GANJAVI IN HAYAT ABDULLAYEVA'S ACTIVITY: "SEVEN BEAUTIES AND BAHRAM SHAH"**

**Summary:** In the Azerbaijani school of sculpture Hayat Abdullayeva's activity is distinguished with its brightness and uniqueness. The formation of the sculptor's activity happened with an extraordinary speed. The grandeur of her contemporary events, the creation of new cities and the reconstruction of historical-architectural monuments, efforts to synthesize different types of art, various exhibitions, competitions for new works of art and all other events help the sculptor to understand the nature of events around them, required to evaluate them in accordance with the requirements of the time, to present the images with new human features. The sculptor's extensive artistic heritage demonstrates that the artist's thoughts and creative aspirations are closely linked to the harmony of culture and art development of Azerbaijan.
**Key words:** sculpture, Nizami, East, composition, image, lyrics, plasticity.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 08.04.2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**